# RƏİS (ƏMƏYİN MÜHAFİZƏSİ VƏ EKOLOGİYA ŞÖBƏSİ) VƏZİFƏSİ ÜZRƏ MÖVZULAR

1. Əməyin mühafizəsi, təhlükəsizlik texnikası, istehsalat sanitariyası və yanğından mühafizə qayda və normaları
2. Əməyin mühafizəsi üzrə qanunvericilik
3. Ekoloji monitorinq üsulları
4. Ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan səmərəli istifadə olunması üzrə normativ sənədlər
5. Ətraf mühitin çirklənməsi mənbələrinin aşkar edilməsi yolları
6. Tullantıların emalı, basdırılması və ya saxlanılması qaydaları

**1. Əməyin mühafizəsi üzrə qanunvericiliyə əməl edilməsinə ictimai nəzarəti aşağıdakı orqanlardan hansı həyata keçirir?**
A) Əmək kollektivinin müvəkkil etdiyi şəxslər və Həmkarlar ittifaqı təşkilatları
B) İşə götürənin ictimai birlikləri
C) Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-Mədən Nəzarəti Dövlət Agentliyi
D) Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
E) İcra hakimiyyəti orqanları

**2. İstehsalatda sağlam və təhlükəsiz əmək şəraitinin yaradılmasına kim cavabdehdir?**
A) İşçi özü
B) Sahə rəisi
C) Sahə mühəndis
D) İşə götürən
E) Baş mexanik

**3. Yerinə yetirilməsinə görə əmək şəraitinin yaxşılaşdırılması və sağlamlaşdırılması üzrə tədbirlər necə təsnif edilir?**
A) Planlı tədbirlər.
B) Plandan kənar tədbirlər.
C) Mövsümi tədbirlər.
D) Bu tədbirlər icra edilməsi xüsusiyyətinə görə təsnif edilmir.
E) Planlı və plandan kənar tədbirlər.

**4. Su hövzələrinin ekoloji monitorinqi zamanı müxtəlif dərinliklərdən su nümunələrini götürmək üçün hansı cihazdan istifadə olunur?**
A) Qiqrometr
B) Batometr
C) Radiometr
D) Dib çarpan
E) Su qabı

**5. Ekoloji təbliğat nədir?**
A) İdarəçilik sistemidir
B Qeyri – hökümət təşkilatlarının fəaliyyətləri sistemidir
C) Əhali arasında ekoloji mədəniyyətin formalaşdırılmasına yönəldilən maarifləndirmə fəaliyyəti sistemidir
D) Ekoloji cəhətdən yeni texnologiyaların təbliğatı
E) Ekoloji priotetlərə üstünlük vermə

NÜMUNƏ